MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sikafloor®-264 Plus

Özü Səviyyələnən Döşəmə Örtüyü və Eboksid boya

## TƏSVİR

Sikafloor®-264 Plus, iki komponentli eboksid əsaslı rəngli örtük və boyadır.  Yüksək dayanımlı, hamar, parlaq səth və ya müxtəlif ölçülü kvars dənəcikləri səpilmiş halda sürüşməyə qarşı dayanıqlı səth təmin edən örtük materialıdır.

## İSTİFADƏ YERLƏRİ

Sikafloor®-264 Plus yalnız təcrübəli peşəkarlar tərəfindən istifadə olunmalıdır.

Sikafloor®-264 Plus aşağıdakı məqsədlər üçün istifadə olunur:
- Beton və sement əsaslı səthlərdə öz-özünə səviyyələnən döşəmə örtüyü tətbiqlərində
- Beton və sement əsaslı səthlərdə hamar boyama örtük tətbiqlərində  (roller ilə)
- Beton və sement əsaslı səthlərdə sürüşməyə qarşı dayanıqlı örtük tələblərinin qarşılanmasında
- Kvars qumu səpilmiş sistemlər üçün son qat və ya üst örtük tətbiqlərində

Qeyd: Məhsul yalnız daxili məkan tətbiqlərdə istifadəyə uyğundur.

## ÜSTÜNLÜKLƏRİ

- Yüksək mexaniki dayanıqlılıq
- Yüksək zərbə dayanıqlığı
- Az qulluq tələb edir
- Az qoxulu
- Aşağı VOC emissiyası
- Tikişsiz, parlaq və gigiyenik döşəmə tərtibi
- İstəyə görə sürüşməz və ya hamar səth profil təmini

## DAVAMLILIQ

- EN 15804 standartına uyğun Ekoloji Məhsul Bəyannaməsi (EPD). EPD müstəqil tərəf Institut für Bauen und Umwelt e.V. (IBU) tərəfindən təsdiqlənmişdir.
- LEED® v4 çərçivəsində Daxili Mühit Keyfiyyəti (EQ) kreditinə töhfə verir: Aşağı emissiyalı materiallar — 1–3 bal.
- LEED v4.1 MR: Material tərkibi (seçim 2) Sikafloor®-264 Plus.
- AgBB tələblərinə, o cümlədən daxili mühit üçün LCI dəyərlərinə (İyun 2021) uyğun gəlir.
- Fransız tənzimləməsinə əsasən daxili VOC emissiyaları sinfi A+.
- Tikinti materiallarının VOC emissiya təsnifatı RTS M1.

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

- EN 1504-2:2004 standartına əsasən CE nişanı və performans bəyannaməsi — Beton konstruksiyaların qorunması və təmiri üçün məhsullar və sistemlər — Beton üçün səth qoruma sistemləri — Örtüklər.
- EN 13813:2002 standartına əsasən CE nişanı və performans bəyannaməsi — Döşəmə və şap materialları — Şap materialı — Xüsusiyyətlər və tələblər — Sintetik qatran şap materialı.
- Sürüşməyə qarşı müqavimət DIN EN 16165, Sikafloor®-150 Plus / -264 Plus, Roxeler, Test Hesabatı № 020067-24-6.
- Dekontaminasiya (Zərərsizlik) sertifikatı DIN ISO 8690, Sikafloor®-264 Plus, iLF, Test Hesabatı № 240936.
- Qida ilə dolayı təmas üçün uyğunluq, Sikafloor®-264 Plus, Wessling, Sertifikat № CAL25-010562-1_CER.

## MATERIAL MƏLUMATI

| | | | |
|---|---|---|---|
| **Kimyəvi əsası** | Solventsiz eboksid qatran | | |
| **Qablaşdırma** | A komponenti | 24 kg | |
| | B komponenti | 6 kg | |
| | A+B Set | 30 kg | |
| **Görünüş və rəng** | A komponenti | Rəngli, maye | |
| | B komponenti | Şəffaf, maye | |
| | Bərkimiş örtük | Rəngli, parlaq səth | |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 24 ay | | |
| **Saxlama Şərtləri** | Orijinal, açılmamış və zədələnməmiş qablaşdırmada, quru şəraitdə +5 °C ilə +30 °C arasında saxlanmalıdır. Hər zaman qablaşdırma məlumatına istinad edin. Təhlükəsiz istifadə və saxlama haqqında ətraflı məlumat üçün mövcud Təhlükəsizlik Məlumat Vərəqinə baxın. | | |
| **Sıxlığı** | A+B qarışımı | 1.48 kg/l | (EN ISO 2811-1) |
| | A komponenti | 1.67 kg/l | |
| | B komponenti | 1.01 kg/l | |
| **Kütləcə qatı maddə miqdarı** | 100 % | | |
| **Həcmcə qatı maddə miqdarı** | 100 % | | |

## TEXNİKİ MƏLUMATLAR

| | | | |
|---|---|---|---|
| **Shore D sərtliyi** | +23 °C-da 14 günlük quruma sonrasında | 80 | (EN ISO 868) |
| **Aşınma müqaviməti** | +23 °C-da 7 günlük quruma sonrası | 430 mg (H22 / 1000 g / 1000 dövr) | (EN ISO 5470-1) |
| **Zərbə dayanıqlığı** | 4 Nm | | (EN ISO 6272-1) |
| | ≥ IR4 | | (EN ISO 6272-1) |
| **Sıxılma müqaviməti** | +23 °C-da 28 günlük bərkimə sonrası | 140 MPa | (EN ISO 604) |
| **Bükülmə gücü** | +23 °C-da 28 günlük bərkimə sonrası | 45 MPa | (ISO 178) |
| **Dartma yapışma gücü** | > 1.5 N/mm² (betonda iç qopma) | | (EN 1542) |
| **Yanğına reaksiya** | Sinfi $B_{fl}$-s1 | | (EN 13501-1) |

## TƏTBİQ MƏLUMATI

| | | |
|---|---|---|
| **Qarışdırma nisbəti** | A : B (kütlə nisbəti) | 80 : 20 |
| **Sərfiyyat** | **İstifadə Məqsədi** | **Sərfiyyat** |
| | Aşınma təbəqəsi (dolğulu) ,özü səviyyələnən | 1.6-1.9 kg/m²/mm |
| | Boyama qatı | 0.3–0.4 kg/m² |
| | Örtüklərin və qumlu səthlərin son qatı | 0.6–0.8 kg/m² |
| **Məhsul temperaturu** | Maksimum | +30 °C |
| | Minimum | +10 °C |

| | | |
|---|---|---|
| **Ətraf mühit temperaturu** | Maksimum | +30 °C |
| | Minimum | +10 °C |
| **Nisbi hava rütubəti** | Maksimum | 80 % r.h. |

**Şeh Düşmə temperaturu**

Kondensasiya əmələ gəlməməsinə diqqət edin. Kondensasiya və səthdə ləkələnmə riskini azaltmaq üçün səthin və yeni tətbiq olunmuş örtüyün temperaturu şeh düşmə nöqtəsindən ən azı +3 °C yüksək olmalıdır. Aşağı temperatur və yüksək rütubət şəraiti səthdə ləkələnmə ehtimalını artırır.

| | | |
|---|---|---|
| **Səthin temperaturu** | Maksimum | +30 °C |
| | Minimum | +10 °C |

**Səthin nəmlilik miqdarı**

İstifadə olunan eboksid astar məhlulunun Məhsulun Məlumat Vərəqinə baxın.

**İstifadə müddəti**

| | |
|---|---|
| +10 °C | 50 dəqiqə |
| +20 °C | 25 dəqiqə |
| +30 °C | 15 dəqiqə |

Qeyd: Göstərilən vaxtlar təxmini xarakter daşıyır və ətraf mühit şəraitinin dəyişməsindən, xüsusilə temperatur və nisbi rütubətdən təsirlənəcəkdir.

**Növbəti qat üçün gözləmə müddəti**

Sikafloor®-264 Plus üzərinə həlledicisiz(solventsiz) məhsullar tətbiq etməzdən əvvəl aşağıdakı müddətlər gözlənilməlidir:

| Temperatur | Minimum | Maksimum |
|---|---|---|
| +10 °C | ~ 30 saat | ~ 3 gün |
| +20 °C | ~ 24 saat | ~ 48 saat |
| +30 °C | ~ 16 saat | ~ 24 saat |

Qeyd: Göstərilən vaxtlar təxmini xarakter daşıyır və ətraf mühit şəraitinin dəyişməsindən, xüsusilə temperatur və nisbi rütubətdən təsirlənəcək.

**İstismara hazır olma zamanı**

| Temperatur | Piyada Keçidi | Yüngül istifadə | Tam Quruma |
|---|---|---|---|
| +10 °C | ~ 30 saat | ~ 6 gün | ~ 7 gün |
| +20 °C | ~ 24 saat | ~ 4 gün | ~ 5 gün |
| +30 °C | ~ 16 saat | ~ 2 gün | ~ 3 gün |

Qeyd: Vaxtlar sistemin son qatının tətbiqindən sonrası üçün keçərlidir. Vaxtlar, ətraf mühit şəraitinin dəyişməsindən, xüsusilə temperatur və nisbi rütubətdən təsirlənəcək.

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## ƏLAVƏ MƏLUMAT

Aşağıdakı Tətbiq Təlimatları Sənədinə baxın:
- Sika Tətbiq Təlimatları — Döşəmə sistemləri üçün səthlərin qiymətləndirilməsi və hazırlanması
- Sika Tətbiq Təlimatları — Sikafloor® Məhsullarının qarışdırılması və tətbiq

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### SƏTH HAZIRLIĞI

**Önəmlidir:**
**Çatların düzgün işlənməməsi xidmət müddətinin azalmasına səbəb olur!**

Çatların düzgün qiymətləndirilməməsi və işlənməməsi xidmət müddətinin azalmasına və səthdə çatların görünməsinə gətirib çıxara bilər.

- Statik çatlar üçün, çat genişliyinin Sikafloor®-264 Plus ilə örtülməyə uyğun olduğundan əmin olun.
- Dinamik çatlar üçün, hərəkətin Sikafloor®-264 Plus-un hərəkət qabiliyyəti daxilində olduğundan əmin olun.

**Dərz və çatların işlənməsi:**
Beton dərzləri və mövcud statik səth çatları tam qat tətbiqindən əvvəl öncədən işlənməlidir. Bunun üçün Sikadur® və ya Sikafloor® qatranlarından istifadə edin.
**Səthlər:**
Sement əsaslı səthlər struktur cəhətdən möhkəm olmalı və kifayət qədər sıxılma gücünə malik olmalıdır (min. 25 N/mm²), həmçinin minimum dartılma gücü 1.5 N/mm² olmalıdır.
Səthlər təmiz, quru və kir, yağ, çirkləndiricilər, örtüklər, sement tozu, səth emalları və zəif tutunmuş təbəqədən azad olmalıdır.
**Səth Hazırlığı**
**Önəmlidir:**

**Səthi boşluqlar səbəbindən səth qüsurları**

Səth hazırlığı zamanı səthdəki boşluqlar və gözənəklər təmir edilmədikdə, bu örtük təbəqəsini zəiflədəcək və məhsula zərər verəcəkdir.

- Hazırlıq zamanı bütün boşluqları və hava dəliklərini tam aşkar edin və lazımi təmiri üsulunu müəyyən edin.

**Hazırlıq:**
1. Zəif sement şərbəti qatını çıxarın.
2. Sement əsaslı səthləri mexaniki üsulla hazırlayın: aşındırıcı qum püskürtmə, qaşıma və ya frezləmə avadanlığı ilə sement şərbətini çıxarın.
3. İncə qat boya tətbiq olunacaq isə yüksək nöqtələr cilalanmalı, səth düzləşdirilməlidir.
4. Tətbiq səthindən bütün tozu, boş və kövrək materialları sənaye tipli tozsoranla təmizləyin.
5. Səthi hamarlayın və ya çatları, boşluqları Sikafloor®, Sikadur® və Sikagard® məhsulları ilə doldurun.
6. Səth düzəltmə və qüsurların təmiri üçün əlavə məlumat üçün Sika® Texniki Xidmətlərlə əlaqə saxla.yın

**Sement əsaslı olmayan səthlərin hazırlanması:**
Sement əsaslı olmayan səthlərin hazırlanması barədə məlumat üçün Sika® Texniki Xidmətlərlə əlaqə saxlayın.

### QARIŞDIRMA

**Boyama Tətbiqi üçün Qarışdırma:**
1. A- komponenti (qatran) qarışdırın, rəng piqmenti tam yayılana və vahid rəng əldə olunana qədər.
2. B-komponentini (bərkidici) A-komponentinə əlavə edin.
3. A və B komponentini birlikdə 3 dəqiqə fasiləsiz, vahid rəngli qarışıq əldə olunana qədər qarışdırın.
4. Tam qarışmanı təmin etmək üçün materialı başqa bir qaba tökün və yekcins qarışıq əldə olunana qədər yenidən qarışdırın.
5. Son qarışdırma mərhələsində, qarışdırma qabının yanlarını və dibini düz və ya düz kənarlı mala ilə ən azı bir dəfə qaşıyın ki, tam qarışma təmin edilsin.

**Önəmlidir:**
Həddindən artıq qarışdırmadan çəkinin.

**Örtük Tətbiqi üçün Qarışdırma**
1. A-komponentini (qatran) qarışdırın, rəng piqmenti tam yayılana və vahid rəng əldə olunana qədər.
2. B-komponentini (bərkidici) A-komponentinə əlavə edin.
3. A + B qarışdırılarkən, tələb olunan kvars dolğu və ya aqreqatları tədricən əlavə edin.
4. Tam qarışmanı təmin etmək üçün materialı başqa bir qaba tökün və yekcins qarışıq əldə olunana qədər qarışığı əlavə 2 dəqiqə qarışdırın.
5. Son qarışdırma mərhələsində, qarışdırma qabının yanlarını və dibini düz və ya düz kənarlı mala ilə ən azı bir dəfə qaşıyın ki, tam qarışma təmin edilsin.

**Önəmlidir:**
Həddindən artıq qarışdırmayın.

### TƏTBİQ

**Önəmlidir:**
Nəmdən qoruyun.
Tətbiqdən sonra məhsulu ən azı 24 saat nəm, kondensasiya və birbaşa su ilə təmasdan qoruyun.
**Önəmlidir:**
Astarın kvars qumu ilə örtülməsi:
Astar təbəqəsinin aqreqatla örtmək səthdən qalxan buxarın məhsulda qabarcıq və səth qüsurları yaratmasına səbəb ola bilər.
1. Astarı mexaniki yapışma üçün aqreqatla örtməyin.

**Önəmlidir:**
Səthdə nəmlik > 4% olduqda müvəqqəti nəmlik baryeri tələb olunur
1. Əgər səthdə nəmlik CM-metodu ilə ölçüldükdə > 4% olarsa, Sikafloor® EpoCem® ilə müvəqqəti baryer tətbiq edin.Əlavə məlumat üçün Sika texniki xidmətinə müraciət edin.

**Önəmlidir:**
Yüksələn nəmlik olan səthlərdə tətbiq etməyin.
**Önəmlidir:**
Rəng uyğunsuzluğu:
1. Rəng uyğunluğu üçün məhsulu eyni partiya nömrələrindən istifadə edərək tətbiq edin.

**Önəmlidir:**
Yanlış isitmə üsulu
Qaz, yağ və ya kerosinlə işləyən istilik cihazları karbon dioksid və su buxarı istehsal edir, bu da səthə zərər verə bilər.
1. Müvəqqəti istilik üçün yalnız elektrikli hava üfürən cihazlardan istifadə edin. Qaz, yağ, kerosin və digər yanacaqla işləyən cihazlardan istifadə etməyin.

**İncə Boyama**
1. Qarışdırılmış məhsulu səthə tökün və yayın. Qeyd: Sərfiyyat üçün Tətbiq Məlumatına baxın.
2. Məhsulu qısa tüklü rolik ilə iki istiqamətdə tətbiq edin.

**Özü Səviyyələnən Örtük**

1. Qarışdırılmış məhsulu səthə tökün. Qeyd: Sərfiyyat üçün Tətbiq Məlumatına baxın.
2. Məhsulu dişli mala ilə səthə bərabər yaydırın.
3. Səthdə iki istiqamətdə kirpi-rolik gəzdirin. Qeyd: Tətbiq zamanı "yaş kənar" saxlayın ki, tikişsiz səth əldə edilsin.

**Qum Səpilmiş Səth Üçün Son Qat**

1. Qarışdırılmış məhsulu Səthə tökün. Qeyd: Sərfiyyat üçün Tətbiq Məlumatına baxın.
2. Məhsulu rezin mala ilə səthə bərabər yaydırın.
3. Səthdə düz bucaq altında iki istiqamətdə rolik gəzdirin. Qeyd: Tətbiq zamanı "yaş kənar" saxlayın ki, tikişsiz səth əldə edilsin.

**Sürüşməz Qum Səpilmiş Qat**

1. Qarışdırılmış məhsulu hazırlanmış səthə tökün.
2. Məhsulu mala ilə səthə bərabər yaydırın.
3. Səthdə iki istiqamətdə kirpi-rolik gəzdirin.
4. Məhsulu 15 dəqiqə kürlənməyə buraxın. Qeyd: Vaxt temperaturdan asılıdır (+20 °C üçün verilmişdir).
5. Səthi əvvəlcə yüngül, sonra tam şəkildə kvars qumu və ya silisium karbid ilə səpin. Qeyd: Aqreqat sistemin quruluşundan asılıdır. Müvafiq Sistem Məlumat Vərəqəsinə baxın.
6. Səth yapışqan olmayana qədər gözləyin.
7. Bütün boş qumu sənaye tipli tozsoranla təmizləyin.

### AVADANLIQ TƏMİZLİYİ

Bütün alətləri və tətbiq avadanlıqlarını istifadə etdikdən dərhal sonra Sika® Thinner C ilə təmizləyin. Bərkimiş material yalnız mexaniki üsulla çıxarıla bilər.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12